UOT 338.1 (479.24)

# Azad iqtisadi zonalarda vergi stimullaşdırılması



**Muradov Yahya Məmmədhüseyn oğlu***
AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı

## Xülasə

*Tədqiqatın məqsədi* - vergi stimullaşdırılması sahəsində azad iqtisadi zonaların yaradılması, fəaliyyətində qabaqcıl təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi və bu təcrübənin Azərbaycanda tətbiqi.

*Tədqiqatın metodologiyası* - sistemli yanaşma, müqayisəli təhlil, ümumiləşdirmə, nisbi müşahidə, təsnifat.

*Tədqiqatın nəticələri* - azad iqtisadi zonalarda vergi stimullaşdırılması üzrə xarici təcrübənin sistemləşdirilməsi və səmərəli modelin yaradılmasından ötrü milli təcrübədə istifadə imkanları.

*Təqdiqatın məhdudiyyətləri* - Azərbaycanda azad iqtisadi zonaların mövcud olmaması və onların yaradılması perspektivləri üzrə informasiyanın qıtlığı.

*Tədqiqatın praktiki əhəmiyyəti* - Azərbaycanda azad iqtisadi zonaların yaradılması prosesində burada vergi stimullaşdırılması mexanizminin tətbiqi.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - Azərbaycan Respublikasında azad iqtisadi zonaların yaradılması və fəaliyyəti prosesində effektiv vergi stimullaşdırılması mexanizminin formalaşmasında tədqiq olunan mövzu perspektiv əhəmiyyətə malikdir.

**Açar sözlər:** *azad iqtisadi zonalar, vergi stimullaşdırılması, imtiyazlar sistemi, qeyri-neft sektoru, istehsal xarakterli zonalar.*

## 1. Giriş

Dünya təcrübəsi iqtisadiyyatın ayrı-ayrı sahələrinin və ərazirlərin sürətləndirilmiş inkişaf etdirilməsində azad iqtisadi zonaların (*AİZ*) yaradılması kimi effektiv təşkilati-iqtisadi mexanizmin mövcud olmasını göstərir. Fikrimizcə, Azərbaycanın qeyri-

* Bakı şəhəri, AZ1073, Hüseyn Cavid prospekti, 31.



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

neft sektorunun inkişafına məhz AİZ-r kömək edəcək. Qlobal neft və nəqliyyat layihələri ("Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının genişmiqyaslı istismarı, "Bakı-Tbilisi-Jeyhan" və "Bakı-Tbilisi-Ərzurum" boru kəmərlərinin istifadəyə verilməsi) üzrə əsas işlərin tamamlanması və dünya səviyyəsində xarici investisiyaların həcminin azalmasına olan tendensiyalar milli iqtisadiyyatın qeyri-neft sektorunun inkişafının sürətləndirilməsilə yanaşı Azərbaycan iqtisadiyyatına əlavə, ilk növbədə xarici investisiyaların cəlb edilməsinə təkan verəcək.

Azad iqtisadi zonalar iqtisadi inkişafı təmin etmək məqsədilə, sürətli iqtisadi islahatlar aparan ölkələr üçün yeni iqtisadi alət rolunu oynamaqla yanaşı, bu ölkələrin o cümlədən də Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiyasının genişləndirilməsinə və ölkələr daxilində inkişafdan geri qalmış ərazilərin sosial iqtisadi inkişafının sürətləndidilməsinə əlavə stimullar verə bilir.

## 2. AİZ-lərin mahiyyəti və funksional cəhətləri

AİZ nədir? Gömrük prosedurlarının sadələşdirilməsi və unifikasiyası üzrə beynəlxalq konvensiyaya (*Kioto. 18 may 1973-cü il*) əsasən azad iqtisadi zona (*və ya "zona-franko"*) termini altında ölkə ərazisinin bir hissəsi başa düşülür ki, burada əmtəələr milli gömrük xaricində olan obyektlər kimi qəbul edilir və bu səbəbdən də adi gömrük nəzarətinə və vergitutmaya cəlb edilmir. Başqa sözlə, AİZ-lar xüsusi rejimli ölkə əraziləridir. Bu rejimi ifadə edən və AİZ-da təsərrüfat subyektlərinin fəaliyyətini tənzimləyən xüsusi qanunvericilik aşağıdakı məsələləri əhatə edir:

- ❑ gömrük tənzimləməsi;
- ❑ vergiqoyma; lisenziyalaşdırma;
- ❑ viza rəsmiləşdirilməsi;
- ❑ bank fəaliyyəti;
- ❑ əmlak və girov münasibətləri (*o cümlədən torpaq sahibkarlığı hüquqlarına aid olanlar*);
- ❑ konsesiyyaların verilməsi;
- ❑ azad zonaların idarəedilməsi.

AİZ-da həmçinin əmək və sosial qanunvericilik aktları da müəyyən spesifikaya malik ola bilər.

Müasir beynəlxalq iqtisadi təcrübəsində AİZ-ın mahiyyəti daha geniş şərh edilir: onlar iqtisadi proseslərə dövlət müdaxiləsinin miqyasının azaldılması aləti kimi müəyyən edilir. AİZ anlayışının bu cür ifadə olunması preferensial (imtiyazlı) təsərrüfatçılıq rejiminin fəaliyyətilə bağlı olan təzahürlərin bütün spektorunu əhatə edir. Bu cür yanaşmada azad iqtisadi zona «yalnız ayrılmış coğrafi ərazi deyil, daha çox milli iqtisadi məkanın elə hissəsidir ki, burada digər hissələrdə istifadə olunmayan müəyyən imtiyazlar və stimullar sistemi tətbiq edilərək istifadə olunur» [1, 7].

AİZ-ın səciyyəvi xüsusiyyətlərinə nəzər salaq:

a) Müxtəlif imtiyaz və stimulların istifadəsi, o cümlədən:

- ❖ xarici ticarət (ixrac-idxal rüsumlarının azaldılması və ya ləğvi, xarici ticarət əməliyyatlarının həyata keçirilməsinin sadələşdirilmiş qaydaları);
- ❖ fiskal, konkret fəaliyyət növlərinin vergi stimullaşdırılması. İmtiyazlar vergi bazasına aid ola bilər (gəlir və ya mənfəət və s.), onun ayrı-ayrı komponentlərinə (amortizasiya ayırmaları, əmək haqqına, elmi-tədqiqat işlərinə, nəqliyyata məsrəflər), vergi dərəcələrinin səviyyəsinə, vergilərdən daimi və ya müvəqqəti azad edilməsi məsələlərinə;
- ❖ maliyyə, müxtəlif formada subsidiyaların verilməsi. Onlar həm müstəqil formada - büdcə vəsaitlərinin və imtiyazlı dövlət kreditlərinin verilməsi, həm də dolayı formada - kommunal xidmətlərinə aşağı qiymətlərin təyin edilməsi, torpaq sahələrindən istifadəyə görə icarə ödənişlərinin azaldılması və s. kimi verilə bilər;
- ❖ inzibati, müəssisələrin qeydiyyata alınması prosedurlarının, xarici vətəndaşların gəlib-getmə rejimlərinin asanlaşdırılması.

İmtiyazların tətbiqi nəticəsində AİZ-da gəlir norması 30-35% bəzən isə daha çox təşkil edir: məsələn transmilli şirkətlər Asiyadakı AİZ-dan orta hesabla ildə 40%-ə qədər gəlir alırlar. İnvestisiyaların özünü ödəmə müddəti əhəmiyyətli dərəcədə (*2-3 dəfə*) azalır (*AİZ-ar üçün bu müddətin 3-3,5 il olması normal sayılır*).

b) Geniş iqtisadi spektorda müstəqil qərar qəbul etmək səlahiyyətlərinə malik olan lokal, nisbətən xüsusiləşdirilmiş idarəetmə zonasının mövcudluğu.

c) Mərkəzi dövlət hakimiyyəti tərəfindən hərtərəfli kömək.

AİZ-ın yaradılması konkret prioritet iqtisadi məsələlərin həlli, strateji proqram və layihələrin həyata keçirilməsinə yönəldilmiş ayrı-ayrı ərazi və regionların iqtisadiyyatının inkişafında təsirli istiqamətdir. Bununla belə, təcrübə göstərir ki, AİZ-da müəyyən edilən imtiyazlar sistemi kifayət qədər fərdidir və ərazidə həyata keçirilən proqramlarla sıx bağlıdır.

## 3. Xarici təcrübə

Müxtəlif məlumatlara əsasən hal-hazırda dünyada 400-ən 2000-ə qədər AİZ fəaliyyət göstərir. İlk dəfə AİZ-lər ABŞ-da 1934-cü ilin aktına əsasən xarici ticarət zonaları kimi yaradılmışdır. Onların məqsədi gömrük xərclərinin effektivli azaldılması mexanizmlərinin istifadəsi vasitəsilə xarici ticarət fəaliyyətinin aktivləşdirilməsi olmuşdur. Bu zaman əsasən avtomobil istehsalı üçün hissə və komponentlərə idxal tariflərinin azaldılması nəzərdə tutulurdu. Aeroportlar, doklar, ambarlar xarici ticarət zonalarına çevrilmişdilər. Göstərilən zonalarda fəaliyyət göstərən müəssisələr ABŞ gömrükünün nəzarətindən o şərtlə çıxarılırdı ki, bu zonaya idxal olunan əmtəələr sonradan üçüncü ölkələrə göndərilsin. Gömrük xərcləri həm də o zaman aşağı salınırdı ki, sonradan ixrac edilməsi məqsədilə ABŞ firmaları

tərəfindən məhsullarının üzərində zonada əlavə işlər aparılırdı. Əgər məhsullar zonadan ABŞ-a göndərilirdisə, onlar mütləq qaydada ölkə qanunvericiliyində nəzərdə tutulmuş bütün gömrük prosedurları keçirdi.

AİZ-lərin müvəffəqiyyətli variantının misalı kimi 1957-ci ildə İrlandiyada mərkəzi "Şennon" aeroportu olmaqla əlverişli şərait zonasının yaradılmasını göstərmək olar. Zonanın ərazisi cəmi 15 ha təşkil edirdi. Məqsəd kifayət qədər kiçik idi: əlavə 300 iş yerlərinin yaradılması. Burada isə məhz o haldır ki, nəticələr gözlənildikdən qat-qat yüksək olmuşdur.

Daha bir uğurlu azad iqtisadi zonanın misalı kimi mərkəzi "Doq-Aylend" (*İngiltərə, 1982-ci il*) aeroportunda olan zonanı göstərmək olar. AİZ-nın ərazisi 2000 ha təşkil etmişdir və nəzərdə tutulmuş proqramın həyata keçirilməsi üçün bir milyard funt sterlinqdən artıq vəsait cəlb edilmişdir.

1967-ci ildə Braziliyada başqa tipli azad iqtisadi zona yaradılmışdır - "Manaus azad zonanın sənaye mahalı" (*Amazoniya*). Zona üçün ayrılmış sahə 3,6 milyon kvadrat kilometr olmuşdur. Məqsədi - sənaye istehsalının inkişafının stimullaşdırılması, məqsədə nail olunmanın əsas vasitəsi isə vergi imtiyazları olmuşdur. Bu zona sürətlə inkişaf etdi və bütün Braziliya iqtisadiyyatının sağlamlaşmasına müsbət təsir göstərdi. AİZ-nın əsasını təxminən 30 xammal və yanacaq-enerji sahəsi təşkil edirdi ki, onların məhsulu Braziliyanın özündə istehlak olunurdu. Zonanın ixracı istehsalın yalnız 3-5%-ni təşkil edirdi.

1978-ci ildə Çinin 14 sahilyanı şəhərində azad iqtisadi zonalar yaradıldı. Məqsəd - xarici ticarətin inkişaf etdirilməsi olmuşdur. Əsas alət kimi isə vergi və gömrük imtiyazları istifadə olunmuşdur. Yaradılma zamanı zonaların hər bir hektarına ildə təxminən 15-17 milyon ABŞ dolları sərf olunurdu. Yaradılma zamanından başlayaraq 1987-ci ilə qədər Çinin AİZ-na cəmi təxminən 22 milyard dollar cəlb edilmişdir. Ölkənin xarici ticarət dövriyyəsinin 2/3 hissəsi bu zonalardan keçirdi. 1990-cı ildə yalnız Şençcen zonasının ixracı 3 milyard dollar təşkil etmişdir.

AİZ-rın fəaliyyətinin müsbət misalı kimi Birləşmiş Ərəb Əmirliklərdəki azad iqtisadi zonaları göstərmək olar. Əmirliklərdə 16 azad iqtisadi zona fəaliyyət göstərir ki, orada 5 mindən artıq şirkət fəaliyyət göstərir. AİZ-da 100% xarici kapitalı olan şirkətlərə işləmək icazəsi verilir, onlar vergilərdən, bütün əmtəələr isə rüsumlardan azad olunur. Onlardan ən irisi ölçülərinə görə dünyada üçüncü olan Dubaydakı Jəbəl Əli azad iqtisadi zonadır. Rəs-əl-Haymı azad iqtisadi zonasında 2004-cü ilin 7 ayında rekord sayda yeni açılmış şirkət qeydiyyata alınmışdır - 100. Beləliklə orada artıq fəaliyyət göstərən şirkətlərin sayı 500-ən çoxdur.

Cənubi Koreya, Malayziya, Sinqapur, Honkonqda yerləşən və əmtəələrin ixracına səmtləşdirilmiş "nöqtəvi" zonalar inkişaf etməkdə olan ölkələrin ixracının 90%-ni əhatə edir.

Elmi-texniki zonaların da sürətli inkişafı gedir. 1973-cü ildə ABŞ-da onların sayı 84-ə bərabər idi. Burada 142 min fəhlə və 45 min alim çalışırdı. ABŞ-da ən böyük

elmi-texniki zona - “Silikon-Vells” (*Silikon vadisi*) adlanır. Burada istehsal olunan hesablama texnikası və kompyuterlərin miqdarı dünya istehsalının 20%-ni təşkil edir. Yaxın vaxtlarda ABŞ-da 1000-ə qədər AİZ-nın yaradılması planlaşdırılır. Bu zaman investisiyaların həcmi 3 milyard dollardan artıq, əlavə iş yerlərinin sayı isə 100 min təşkil edəcək.

Hollandiya və AFR-da 1985-ci ildə müvafiq olaraq 45 və 50 texnopark var idi, özüdə ki, hər ölkədə daha 100 parkın yaradılması planlaşdırılırdı. Yaponiyada aparıcı elmi bölmələrin əsasında 14 rayonda 18 texnopolis yaradıldı. Ən böyük olan “Tsikuba” texnopolisi 145 min insanı işlə təmin edir. İngiltərədə 25-dən artıq zona və texnopark vardır ki, onların hesabına ümumən 18,4 min iş yeri yaradılmışdır.

Nəhayət, azad zonaların dünyada geniş yayılmış daha bir növünü - offşor zonaları fərqləndirmək olar. Onlar beynəlxalq maliyyə əməliyyatlarını təmin edən bir növ “vergi vahə”ləridir. Offşor mərkəzlərinin misalı kimi ilk növbədə ada ərazilərini - Antil, Baham, Bermud, Vircin, Kayman, Barbados, Qernsi və Cersi, Malta, Madeyra, həmçinin Honkonq, Qərbi Samoa, İrlandiya, Liberiya, Livan, Lixtenşteyn, Panama, Sinqapur və bir sıra digərilərini göstərmək olar.

Offşor zonalar onlardan istifadə edən təsərrüfat agentlərinə aşağıdakı üstünlükləri verir: vergi imtiyazları, valyuta nəzarətinin praktiki olaraq olmaması, rezidentlərlə aparılan əməliyyatların istənilən xarici valyutada həyata keçirilməsi imkanı, məsrəflərin yerindəcə silinməsi, anonimlik, maliyyə əməliyyatlarının məxfiliyi (*əsasən, bir tələb mövcuddur - hakimiyyəti narkobizneslə bağlı olan şübhəli əməliyyatlar haqqında məlumatlandırmaq*). Bu zaman zonanın daxili ssuda kapitalları bazarı rezidentlərin hesablarından ayrılır. İş orasındadır ki, offşorun klassik variantı burada yalnız qeyri-rezidentlərin maliyyə və təsərrüfat fəaliyyətini nəzərdə tutur.

Öz növbəsində vergi imtiyazları üzrə müxtəlif variantlar mümkündür. İrlandiya, Liberiyanın offşor zonalarında vergilər tutulmur. Amma İsveçrədə aşağı dərəcələrlə tutulur. Lixtenşteyn, Antil adaları və Panamanın offşor zonalarında şirkətlər qeydiyyata alınan zaman onlardan vergi kimi vahid məbləğ tutulur (*pouşal vergi*). Bu cür zonalarda adətən illik şirkətlərin qeydiyyat ödəmələri, bank və sığorta lisenziyalarının verilməsinə görə ödəmələr, trast fəaliyyətinə görə ödəmələr tutulur. Onu da əlavə etmək lazımdır ki, əgər İrlandiya və İsveçrədə offşor şirkətlərdən yalnız minimal mühasibat uçotu tələb edilirsə, Antil adalarnda, Liberiyada, Panamada, Lixtenşteyndə hətta bu tələb də yoxdur. Qərbi Samoada mühasibat uçotunun qaydaları reqlamentləşdirilməyib və şirkət sahibləri tərəfindən seçilir.

Macarıstanın təcrübəsi maraqlıdır: bu ölkədə klassik offşor rejimi həyata keçirilmişdir. Offşor şirkətləri gəlir vergisinə 85% həcmində güzəşt alır və bu verginin real dərəcəsini 5,4%-ə qədər aşağı salmağa imkan verir. Offşor şirkətə xarici valyuta ilə əməliyyat aparmaq, hakimiyyətin xüsusi icazəsi olmadan xarici kredit və borc almaq, xarici banklarda hesab açmaq (*o şərtlə ki, hesabların bir hissəsi Macarıstan bankında olsun*) ixtiyarı verilir.

Mütəxəssislərin müşahidələrinə əsasən AİZ-nın çoxu özünəməxsus yol keçmişdir. İlk əvvəl anbar və tranzit zona olaraq sonradan ixrac-istehsal zonaya daha sonra isə kompleks zonaya çevrilmişlər. Dünya təcrübəsi göstərir ki, ixrac zonaları olmadan ölkənin əmtəə və xidmətlərinin ixracı orta hesabla ildə 7% artırsa, belə zonalar olduqda artım 20% olur.

Gördüyümüz kimi, dünya təcrübəsində AİZ-ar müəyyən məqsədlərlə yaradılır ki, həm zonaların özündə, həm də bütün ölkə ərazisində rifah yüksəlsin. Bu kimi məqsədlərə bir qayda olaraq aiddir: xarici ticarət fəaliyyətinin aktivləşdirilməsi, ixrac həcminin artırılması, əlavə iş yerlərinin yaradılması, sənaye istehsalının stimullaşdırılması, ölkəyə xarici investisiyaların cəlb edilməsi, depressiv ərazilərdə iqtisadiyyatın yüksəldilməsi, regionlararası fərqlərin aradan qaldırılması. Bu məqsədlərə nail olmaq üsulları isə çox vaxtı eynidir - vergi və gömrük imtiyazları, müxtəlif güzəştlər.

Xarici ticarət zonaları hər şeydən əlavə valyuta daxilolmalarını təmin edir, o cümlədən də konsiqnasiya ambarlarının hesabına, binaların icarəyə verilməsindən, sərgilərdən, yüklərin boşaldıb yükləməsindən və tranzitindən.

Rusiyada da xarici ticarət zonaların yaradılması təcrübəsi mövcuddur. Məsələn, xarici ticarət zonalarına aşağıdakılar aiddir: “Şerri-zon” azad ticarət zonası (*“Şeremetyevo” aeroportunun yanı*), “Moskva Franko-port” (*“Vnukovo” aeroportunun yanı*), “Franko-Port-Terminal” (*Moskva Qərb çay limanı ərazisində*) kimi azad gömrük zonaları.

Rusiyada xüsusi iqtisadi zonalar (*XİZ*) haqqında Qanun müzakirə mərhələsindədir. Qanunun əsas ideyası xüsusi sənaye-istehsal və texniki-tətbiqi zonaların yaradılmasıdır. Rusiyanın İqtisadi İnkişaf Nazirliyi tərəfindən hazırlanmış layihədə aşağıdakı imtiyazlar nəzərdə tutulur: torpaq və gəlir vergilərinə, əmtəələrin, avadanlıqların və komplektləşdirici məhsulların idxal və ixracına, həmçinin torpaq icarəsinə görə aşağı dərəcələrin təyin edilməsi.

Bununla belə Rusiyanın bəzi regionlarında XİZ-ın yaradılması üzrə layihələr artıq həyata keçirilir: Niceqorod vilayətində Ümumrusiya nüvə mərkəzinin bazasında prioritet istiqamətləri energetika və terror əleyhinə sahələrində tədqiqatları olan texnoparkın tikintisi aparılır. Layihəyə İntel, Boeinq, AFK “Sistema” kimi qurumlar maraq göstərir. XİZ-nın yaradılması üzrə analoji iş Kareliyada (*Kostomukşa şəhəri*) aparılır. Zonanın ixtisaslaşması: telefon sistemləri və elektrik mühərrikləri üçün elektron içliklər, avtomobillərin elektrik avadanlıqlarıdır. Rusiyada ən güclü XİZ-nın Kalininqrad vilayətinin bazasında yaradılması planlaşdırılır və zona iştirakçıları üçün imtiyazlar və tələblər artıq müəyyən edilib. Məsələn, üç il ərzində regionun iqtisadiyyatına 150 milyon rubldan az olmayan məbləği sərf edən investorlar üçün 6 il ərzində sıfır dərəcəli gəlir vergisi müəyyən edilir, sonrakı 6 il ərzində isə dərəcə 50% olur. Bundan əlavə müəssisə 6 il ərzində əmlak vergisindən də azad olunur. XİZ-nın “iştirakçısı” statusunu almaq üçün müəyyən tələblər irəli sürülür: müəssisələr məh-

sullarının 70%-dən az olmayan hissəsini bilavasitə anklavda istehsal etməli, şirkətin əmlakının 90%-i region ərazisində olmalı və əməkdaşlarının 50%-dən az olmayan hissəsinin yerli qeydiyyatı olmalıdır [2].

Rusiyada xüsusi iqtisadi zonaların fəaliyyətinin tənzimlənməsi üçün XİZ idarəedilməsi üzrə Federal agentlik fəaliyyət göstərir [3].

XİZ-ın yaradılmasının əlehdarları hesab edirlər ki, burada verilən vergi imtiyazları büdcəyə daxilolmaları azaldacaq, regiona investisiyaların cəlb olunması isə əsasən burada dövlət büdcəsi hesabına müasir infrastrukturun yaradılması nəticəsində baş verəcək. Tənqidçilərin düşüncələrinə əsasən XİZ-nın subyektlərinə verilən imtiyazlar ayrı-ayrı lobbiçilər qruplaşmalarına gizli verilən maliyyə yardımlarıdır, ilkin kapital yığımı üsuludur ki, o da sonradan xaricə axıdılır.

AİZ-ar Qazaxıstanda da mövcuddur. Onların fəaliyyətini tənzimləyən qanun 1996-cı ildə qəbul edilmiş və bir neçə dəfə dəyişikliklərə məruz qalmışdır. Qüvvədə olan Qanuna əsasən Prezident AİZ-nın yaradılmasını, həmçinin bütün gələcək dəyişiklikləri özünün Fərmanı ilə təsdiq etməlidir. Hal-hazırda ölkədə dörd AİZ-na fəaliyyət göstərir: “Astana-cana kala”, “Aktau dəniz limanı”, “İnformasiya texnologiyaları parkı”, “Ontustik”. Vergi Məcəlləsində AİZ-da fəaliyyət göstərən şirkətlər üçün vergi imtiyazları nəzərdə tutulub: korporativ gəlir vergisindən, torpaq və əmlak vergisindən azad olunma. Burada həmçinin azad gömrük rejimi qüvvədədir.

### 4. Azərbaycanda AİZ-lərin təsisatlandırılması özəllikləri

Azərbaycanın müasir iqtisadi tarixi öz arxivində ölkəmizdə AİZ-ın yaradılması səylərini saxlayır. 1995-ci ildə Azərbaycanda BMT-nın inkişaf Proqramının (*UNDP*) nümayəndəsi Sumqayıtda “xüsusi iqtisadi zonanın” yaradılması ideyasını aktiv irəli sürürdü. Lakin həmin layihə həyata keçirilməmiş qaldı. Sonralar Lənkəranda, Naxçıvanda AİZ-ın, daha sonra Xızı rayonunda texnoparkın yaradılması haqqında polemika aparılırdı.

2002-ci ildə ölkə hökuməti Azərbaycanda azad iqtisadi zonanın yaradılması məsələsində Dünya Bankı (*DB*) və Beynəlxalq valyuta fondu (*BVF*) ilə razılığa gəldi. BVF və DB ərazilərin azad ixrac zonaları kimi yaradılmasını təklif edir. BVF və DB ekspertlərinin məntiqi ondan ibarətdir ki, azad iqtisadi zonaların ənənəvi şəkildə yaradılması ölkə maraqlarına xidmət etməyəcək, çünki vergi siyasətinin zəifləməsinə və idarəetmə xarakterli problemlərin yaranmasına gətirə biləcək. Ekspertlər bir və ya iki azad ixrac zonanın yaradılmasını təklif edir, yəni əmtəələrin idxalı zamanı onların sonrakı ixracı üçün emalını həyata keçirmək (*istehsal xarakterli zonalar*). Bu zaman həmin əmtəələrin idxal rüsumlarından azad edilməsi mümkündür. Hal-hazırda bu zonaların yaradılma mümkünlüyü öyrənilir: onların ölkənin şimalında yaradılması güman edilir.

Bununla belə, qeyd etmək lazımdır ki, AİZ-ın yaradılması və effektivli fəaliyyəti üçün nəzərdə tutulmuş regionda infrastrukturun mövcudluğu lazımdır - yollar, elektrik xətləri, dəniz limanı və digər şərait.

2006-cı ilin oktyabr ayında Bakıda "Xüsusi iqtisadi zonalar Azərbaycanın dayanıqlı iqtisadi inkişafının yeni istiqaməti kimi" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransın gedişi zamanı ölkədə informasiya-kommunikasiya texnologiyaları (*İKT*) sahəsində texnoparkların yaradılmasının əsas istiqamətləri təklif olunaraq müzakirə edilmişdir. Texnoparkların yaradılması İKT sahəsinin idarə edilməsinin qeyri-mərkəzləşdirilməsi və yerli şirkətlərin inkişafı üçün daha geniş imkanların yaradılması zərurətilə izah olunur. Texnoparkların yaradılmasını əsaslandırmaq üçün daxili bazarın və Xəzəryanı regionun bu məhsullara olan tələbatını, ölkənin kadr potensialını, xarici investorlar üçün vəsait qoyuluşunun cazibədarlığını və s. qiymətləndirmək lazımdır. Nəzərə almaq lazımdır ki, şirkətlərin qeydiyyatdan keçirilməsi sisteminin sadələşdirilməsi, valyuta tənzimləməsi rejiminin tətbiqi, vergi və gömrük imtiyazları, imtiyazlı kreditləşdirmə olmadan texnoparkın effektiv işi mümkün deyil. İKT-rı sahəsində texnoparkın yaradılması ideyasına artıq bir sıra şirkət maraq göstərmişdir və onların arasında bu sahədə məşhur olan "Jisko Sistems" kimi şirkətin adı da vardır. "Jisko Sistems" texnopark ərazisində regional innovasiya mərkəzinin yaradılmasını təklif edir ki, onun çərçivəsində şirkət regionun ehtiyacları üçün ən yeni texnologiyaların inkişafını planlaşdırır. Nəzərdə tutulmuş texnoparkın fəaliyyət dairəsini əhatə etmək o şərtlə mümkündür ki, bura səhiyyə və biotexnologiyalar sahəsində proqram təminatı və avadanlıq üzrə mütəxəssislər cəlb edilsin.

28 dekabr 2006-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi haqqında" əsasnamədə göstərilir ki, nazirliyin vəzifələrindən biri ölkədə xüsusi iqtisadi zonaların yaradılmasıdır (*maddə 3.1.32*) [4].

Bu konteksdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 mart 2007-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında" Fərmanı çox vaxtında olmuş və ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafına kömək etmişdir [5, 6].

14 aprel 2009-cu il tarixində Milli Məclis "Xüsusi iqtisadi zonalar haqqında" Qanun qəbul etmiş və 8 iyun 2009-cu ildə həmin qanun qüvvəyə minmişdir. Qanunda XİZ-ın yaradılması və fəaliyyəti qaydaları müəyyən edilir. Bu qanunda istehsal, infrastruktur, innovasiya, azad ticarət və qatışıq zonaların yaradılması nəzərdə tutulur.

Bununla belə, XİZ-də spirtli içkilərin və tütün məmulatlarının istehsalı, teleradio verilişləri, qiymətli metalların istehsalı, həmçinin neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı qadağan olunur. Bunlardan əlavə sənəd XİZ-ın maliyyələşdirilməsi qaydalarını və onların idarə edilməsini, onlar üçün torpaq

sahələrinin ayrılması qaydalarını, XİZ-ın operatorunun hüquq və vəzifələrini müəyyən edir.

Qanunun məqsədi qabaqcıl sahələrin inkişaf etdirilməsi, Azərbaycan iqtisadiyyatına investisiyaların cəlb edilməsidir. Bu kimi zonaların yaradılması regionların inkişafını balanslaşdırmağa, innovasiyaları tətbiq etməyə imkan verəcək. Hər bir XİZ-nın özünün müdiriyyəti, həmçinin özəl operatoru olacaq. Dövlət bu zonaların fəaliyyəti üçün zəruri rejim və bütün lazımi infrastruktur yaratmaq məsuliyyətini öhdəsinə götürür. Bütün digər məsələlər zonanın müdiriyyəti və operatoru tərəfindən həll ediləcək. Qanun layihəsi XİZ-da işləyən şirkətlər üçün imtiyazlı vergi və gömrük rejimlərinin istifadəsini nəzərdə tutur. Məsələn, şirkətlərin ehtiyacları üçün bütün idxal olunun əmtəələr və xammal bütün növ gömrük rüsumların və vergilərin ödənişindən azad ediləcək. Bu zonada müəssisələr 0,5% həcmində dövriyyə vergisi ödəyəcəklər.

## 5. Nəticə

Beləliklə, yuxarıda göstərilmiş dünya təcrübəsi, fikrimizcə milli AİZ-nın effektiv modelini yaratmağa imkan verəcək. Bununla bərabər aşağıdakıları nəzərə almaq lazımdır:

1. AİZ-lərin yaradılması ayrı-ayrı ərazilərin iqtisadiyyatının və sahələrin inkişafının təsirli vasitəsidir. Azad iqtisadi zonaların yaradılması və inkişaf etdirilməsi əsasən konkret prioritet iqtisadi məsələlərin həllinə və strateji proqram və layihələrin həyata keçirilməsinə yönəldilmişdir.
2. AİZ-ın yerləşdirilməsi üçün daha əlverişli olan ərazilər bir qayda olaraq sərhədyanı mövqelərdir və inkişaf etmiş nəqliyyat, istehsal və sosial infrastruktura malikdir. Bəzi hallarda AİZ-ın yaradılması göstərilən üstünlüklərə malik olmayan, lakin qiymətli təbii ehtiyatları olan yeni təsərrüfatçılıq rayonlarında məqsədəuyğun hesab edilir ki, mühüm uzunmüddətli ümumdövlət məsələlərin həllinə kömək etsin.

Yekunda qeyd edək ki, iqtisadiyyatın qeyri-neft sektorunun sürətləndirilmiş inkişafının və iqtisadiyyata yeni investisiyaların cəlb edilməsinin mümkün mexanizmi kimi azad iqtisadi zonadan istifadə edərkən elə şərait yaratmaq lazımdır ki, AİZ-ın güzəştli rejimləri müəyyən müəssisələrə, sahələrə və ya ərazilərə imtiyazların paylanması üçün istifadə edilməsin, sənaye istehsalının stimullaşdırılması və texnoloji inkişafı təmin edən xarici iqtisadi əlaqələrin inkişafına xidmət etmiş olsun. Strateji baxımdan haqlı olan digər istiqamət - ölkənin nəqliyyat-coğrafi mövqeyinin üstünlüklərinin və limanlarətrafı ərazilərin potensialının realizə edilməsidir. Bir neçə rayonda azad gömrük zonalar şəbəkəsinin yaradılması Azərbaycanın dünya təsərrüfat əlaqələrinə inteqrasiyasını sürətləndirər, həmçinin hələ ki, digər xarici ölkələrin analoji zonalarına yönələn nəhəng əmtəə və kapital axınlarını özünə cəlb edə bilərdi.

## Ədəbiyyat siyahısı:

1. Алиев Ш. Специальные экономические зоны: приоритетные проблемы использования в условиях глобализации. Баку: "Элм", 2010, 232 с.
2. Черешнев С. Премьер строит "европейский фасад". М.: Известия, 18 апреля 2005 г.
3. Шишкунова Е. Правительство закрыло список "зон". М.: Известия, 7 ноября 2005 г.
4. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı (*28 dekabr 2006-cı il*).
5. Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı (*6 mart 2007-ci il*).
6. Xüsusi iqtisadi zonalar haqqında Azərbaycan Respublikasının Qanunu, 14 aprel 2009-cu il.
7. Əliyev Ş. Xüsusi iqtisadi zonaların təşkili problemləri və inkişaf perspektivləri (*monoqrafiya)*, Bakı: "Elm", 2008. 254 s.

**Мурадов Яхья Мамедгусейн оглы**
диссертант Института Экономики
Национальной Академии Наук Азербайджана

## Налоговое стимулирование в свободных экономических зонах

### Аннотация

*Цель исследования* - изучение и обобщение передового опыта создания и функционирования свободных экономических зон в области налогового стимулирования, возможностей его применения в условиях Азербайджана.

*Методология исследования* - системный подход, сравнительный анализ, обобщение, выборочное наблюдение, классификация.

*Выводы исследования* - систематизация зарубежного опыта налогового стимулирования в свободных экономических зонах и его использование в отечественной практике для создания эффективной модели СЭЗ.

*Ограничения исследования* - отсутствие свободных экономических зон в Азербайджане и дефицит информации о перспективах их создания.

*Практическая значимость исследования* - применение механизма налогового стимулирования в свободных экономических зонах в процессе их создания в Азербайджане.

*Оригинальность и научная новизна исследования* - исследуемая тема имеет перспективное значение для формирования эффективного механизма налогового стимулирования в свободных экономических зонах в процессе их создания и функционирования в Азербайджанской Республике.

**Ключевые слова:** *свободные экономические зоны, налоговое стимулирование, система льгот, ненефтяной сектор, зоны производственного характера.*

**Muradov Yahya Mammadhuseyn oglu**
PhD-Student in Institute of Economy in Azerbaijan National Sciences Academy

## Tax incentives in free economic zones

### Abstract

*Purpose* - Studying and generalization of the best practices of creation and functioning of free economic zones, in particular in the field of tax incentives, and possibilities of its application in the conditions of Azerbaijan.

*Methodology* - A system approach, the comparative analysis, generalization, selective supervision, classification.

*Findings* - Ordering of foreign experience of tax incentives in free economic zones and its use in domestic practice for free economic zones effective model creation.

*Limitations* - Lack of free economic zones in Azerbaijan and deficiency of information on prospects of their creation.

*Practical importance* - Use of the mechanism of tax incentives in free economic zones in process of their creation in Azerbaijan.

*Originality* - Studied problem has perspective value for formation of the effective mechanism of tax incentives in free economic zones in the course of their creation and functioning in the Azerbaijani Republic.

**Keywords:** *free economic zones, tax incentives, system of benefits, non-oil sector, industrial zones.*

**JEL Classification Codes:** D86, F13, F21, H2.

Məqalə redaksiyaya daxil olmuşdur: 06.02.2012.
Təkrar işləməyə göndərilmişdir: 09.02.2012.
Çapa qəbul olunmuşdur: 30.04.2012.